Olimpiya dünyası
www.olimpiyadunyası.az
Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti
№ 29 (1429), 23 - 29 iyul 2019-cu il
Qəzet 2001-ci ildən çıxır.



# Prezident İlham Əliyev Avropa Olimpiya Komitələrinin prezidentini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiçi qəbul edib.

Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini bildirdi. Yanes Kosyançiç XV Avropa Gənclər Olimpiya Festivalının yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək bu tədbirin böyük önəm daşıdığını və gələcək Olimpiya medallarının qazanılması üçün çox yaxşı hazırlıq prosesi olduğunu dedi. Yanes Kosyançiç Azərbaycanın beynəlxalq idman aləmində güclü mövqelərə malik olduğunu deyərək bu işlərdə Prezident İlham Əliyevin rolunu xüsusi vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Bakıda XV Avropa Gənclər Olimpiya Festivalının keçirilməsi ilə bağlı hazırlıq işlərinin tamamlandığını qeyd etdi və bu tədbirin önəmini vurğuladı. Dövlətimizin başçısı idmanın Azərbaycanda prioritet sahələrdən biri olduğunu bildirərək idmançılarımızın beynəlxalq yarışlarda böyük nailiyyətlər qazandığını və Azərbaycanda mühüm beynəlxalq idman tədbirlərinin uğurla keçirildiyini qeyd etdi.

Sonra Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# XV Avropa Gənclər Olimpiya Festivalının təntənəli açılış mərasimi keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər



Son illərdə ardıcıl bir sıra mötəbər idman yarışlarına ən yüksək səviyyədə ev sahibliyi edən Bakı iyulun 21-də yenidən Avropanın, eləcə də dünyanın diqqət mərkəzinə çevrilib. Ölkəmizin paytaxtı “Bakı 2019” XV Avropa Gənclər Olimpiya Festivalına ev sahibliyi edir.

Festivalın “Baku Crystal Hall”da keçirilən təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, eləcə də Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və digər şəxslər iştirak etdilər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, növbəti Avropa Gənclər Olimpiya Festivalının keçiriləcəyi Slovakiyanın Baş Nazirinin müavini Riçard Rasi və Avropa Olimpiya Komitələrinin rəhbərliyi ilə görüşdülər.

Avropa Gənclər Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi altında keçirilir və 25 ildən artıq ənənəsi olan Avropa Olimpiya Komitələrinin (AOK) qürur mənbəyidir. Bu festival 14-18 yaş arası gənc idmançılar üçün ilk çoxprofilli Avropa tədbiridir. Tək illərdə, iki ildə bir dəfə keçirilən qış və yay festivalları da var.

*(ardı 2-ci səhifədə)*

## İtaliya Respublikasının Neapol şəhərində keçirilən Tələbələrin XXX Ümumdünya Yay Universiadasında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraqqərara alıram:

1. İtaliya Respublikasının Neapol şəhərində keçirilən Tələbələrin XXX Ümumdünya Yay Universiadasında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri aşağıdakı məbləğdə mükafatlandırılsınlar:

1.1. birinci yeri tutan hər bir idmançı - 50 min manat, onun şəxsi məşqçisi - 25 min manat;

1.2. ikinci yeri tutan hər bir idmançı - 30 min manat, onun şəxsi məşqçisi - 15 min manat;

1.3. üçüncü yeri tutan hər bir idmançı - 20 min manat, onun şəxsi məşqçisi - 10 min manat;

1.4. komandanın baş məşqçisi - idman növü üzrə ən yüksək nəticə göstərmiş idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 iyul 2019-cu il.***

Ukraynanın Gənclər və İdman naziri İqor Jdanov başda olmaqla bu ölkənin nümayəndə heyəti Azərbaycan tərəfinin dəvəti ilə XV Avropa Gənclər Olimpiya Festivalında iştirak etmək üçün Bakıda səfərdədir.

İyulun 22-də Azərbaycan Gənclər və İdman Nazirliyində Azərbaycanın və Ukraynanın Gənclər və İdman nazirlikləri arasında Bədən tərbiyəsi və idman sahəsində İkiillik Əməkdaşlıq Proqramı imzalanıb.

## *Azərbaycanın və Ukraynanın Gənclər və İdman nazirlikləri arasında Bədən tərbiyəsi və idman sahəsində İkiillik Əməkdaşlıq Proqramı imzalanıb*

Sənədi Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov və onun ukraynalı həmkarı İqor Jdanov imzalayıb.

Qarşılıqlı anlaşma Memorandumu çərçivəsində iki ildə bir dəfə imzalanan Əməkdaşlıq Proqramı Azərbaycan ilə Ukrayna arasında bədən tərbiyəsi və idman sahəsində qarşılıqlı fəaliyyəti konkretləşdirir. Ukraynanın Gənclər və İdman naziri İqor Jdanov imzalanmış Bədən tərbiyəsi və idman sahəsində İkiillik Əməkdaşlıq Proqramı 2019-2020-ci illər üçün nəzərdə tutulub. İ.Jdanov deyib: “Bu gün biz Azərbaycanın və Ukraynanın Gənclər və İdman nazirlikləri arasında Bədən tərbiyəsi və idman sahəsində İkiillik Əməkdaşlıq Proqramını imzaladıq. Biz ukraynalı idmançıların sizin idmançılarla birgə toplantılar və məşqlər keçirmək üçün Azərbaycana gəlməsinə hazırıq və əlbəttə, Azərbaycan idmançılarını Ukraynaya dəvət edirik. İdman sahəsində ölkələrimiz arasında çoxdan bəri sıx əlaqələr mövcuddur və düşünürəm ki, həmin əlaqələr bundan sonra da inkişaf edəcək”.

Ukraynalı nazir XV Avropa Gənclər Olimpiya Festivalında iştirak etmək üçün dəvətə görə Azərbaycan rəhbərliyinə, habelə Gənclər və İdman naziri Azad Rəhimova təşəkkürünü bildirib. İ.Jdanov sonda deyib: “Tədbir çox gözəl təşkil edilib. Dünən biz festivalın açılışında olduq, hər şey çox gözəl idi. Düşünürəm ki, açılış bu hadisəyə layiq oldu”.

## Azərbaycan idmançıları XV Avropa Gənclər Olimpiya Festivalında 10 medal qazanıblar

İyulun 21-də start götürən XV Avropa Gənclər Olimpiya Festivalında 48 ölkədən 14-18 yaşlı 3900 yeniyetmə idmançı mübarizə aparır. Atletlər idmanın 10 növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş üzrə yarışlarda qüvvələrini sınayırlar. Bu yarışlarda ölkəmizi 122 idmançı təmsil edir.

Azərbaycan idmançıları XV Avropa Gənclər Olimpiya Festivalında ilk 2 gün ərzində 10 (4 qızıl, 4 gümüş və 2 bürünc) medal qazanıblar.

*(ardı 5-ci səhifədə)*



## Anons


İdmançımız Tokio-2020 Yay Paralimpiya Oyunlarına lisenziya qazanıb
**Səh. 6**

***Dünya şöhrətli UFC və MMA döyüşçüsü “Judo Club 2012”də seminar keçib***
**Səh. 6**

# XV Avropa Gənclər Olimpiya Festivalının təntənəli açılış mərasimi keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər







*(əvvəli 1-ci səhifədə)*

Tədbir Olimpiya bayrağı altında keçirilir və Olimpiya ənənələri ilə zəngindir: alovlanan məşəldən başlayaraq idmançı və rəsmilərin and içməsinə qədər. Avropanın bir çox yüksələn idman ulduzları beynəlxalq arenada ilk addımlarını məhz Avropa Gənclər Olimpiya Festivalı zamanı atırlar. Bütün iştirakçılar burada qazandıqları dostluq və təcrübəni özləri ilə həmişəlik evlərinə aparacaqlar, bəziləri üçün isə bu festival Olimpiya zirvəsinə bir yüksəliş olacaq. Avropa Gənclər Olimpiya Festivalı Avropa gənclərini Atletlər kəndində simvolik olaraq birləşdirir. Bu festival idmançıların Olimpiya hadisələrinin ruhunu hiss etməyə və yeni qələbələrə ilhamlanmağa yol açacaq Olimpiya Oyunlarına bir qapıdır.

"Zirvələrə hazırıq" devizi altında keçirilən Bakı 2019 XV Avropa Gənclər Olimpiya Festivalının talismanları Cırtdan və Bəbirdir. Paytaxt Bakının 12 idman obyektində yeddi gün davam edəcək mötəbər turnirdə 48 ölkədən 3900 atlet idmanın on növü - idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında mübarizəyə qoşulub. İştirakçıların 52 faizi oğlan, 48 faizi isə qızdır. İdmançılar 135 dəst medal uğrunda güclərini sınayırlar. Mükafatçılar üçün ümumilikdə, 930 medal hazırlanıb. Medalların 300-ü qızıl, 300-ü gümüş, 330-u isə bürüncdür.

Azərbaycan festivala 122 idmançı ilə qatılıb. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil edirlər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunur. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennisdə 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizəyə qoşulub. Komanda idman növlərində isə voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib. Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda ümumilikdə 30 oyunçu yer alıb.

Festival günlərində idman obyektlərində 3500-dən çox könüllü fəaliyyət göstərəcək.

Qeyd edək ki, Azərbaycan Avropa Gənclərinin Olimpiya festivallarında 1993-cü ildən təmsil olunmağa başlayıb. Həmin il Hollandiyanın Valkensvard şəhərindəki festivalda 43 ölkənin idmançıları mübarizə apardılar. Festivalda Azərbaycan komandası 1 qızıl və 2 gümüş medalla ümumi hesabda 17-ci olub. 1995-ci ildə Böyük Britaniyanın Bat şəhərində keçirilmiş növbəti festivalda cəmi 1 gümüş medal qazanılıb.

1997-ci ildə İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra gənc idmançılarımız bu festivallarda daha böyük uğurlar qazanmağa başlayıblar. 1999-cu ildə Danimarkanın Esbyorq şəhərində keçirilmiş festivalda üç bürünc medal qazanan komandamız 2001-ci ildə İspaniyanın Mursiya şəhərində 2 gümüş və 2 bürünc, iki il sonra Parisdə 2 gümüş və 1 bürünc,



2005-ci ildə İtaliyanın Liqnano şəhərində 2 qızıl və 4 bürünc medala sahib olub. Azərbaycan ən yüksək nailiyyətinə 2007-ci ildə Serbiyanın paytaxtı Belqradda təşkil olunmuş festivalda 7 qızıl medal qazanmaqla imza atıb. Həmin yarışda ölkəmiz ümumi komanda hesabında 6-cı yeri tutub.

2009-cu ildə Finlandiyanın Tampere şəhərində 3 qızıl, 1 gümüş, 1 bürünc, 2011-ci ildə Türkiyənin Trabzon şəhərində 1 qızıl, 2 gümüş, 2013-cü ildə Hollandiyanın Utrext şəhərində 2 qızıl, 1 bürünc, 2015-ci ildə Tbilisidə 2 qızıl, 1 gümüş, 2 bürünc, 2017-ci ildə Macarıstanın Györ şəhərində keçirilən festivalda isə 1 gümüş və 1 bürünc medal qazanılıb.

Nüfuzlu idman xadimləri, ekspertlər Azərbaycan paytaxtında keçirilən Avropa Gənclər Olimpiya Festivalının yüksək səviyyədə təşkil olunduğunu qeyd edirlər. Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç Bakının əvvəlki turnirlərdə olduğu kimi, bu festivala da uğurla ev sahibliyi edəcəyini vurğulayaraq deyib: "Bakı festivalın təşkilinə tam hazırdır. Şəhər yalnız irimiqyaslı tədbirlərin keçirilməsi üçün lazım olan infrastruktura malik deyil. Bakı özündə digər əsas komponentləri - yüksək təşkilatçılıq, həvəs və səmimiliyi birləşdirir. İnanıram ki, XV Avropa Gənclər Olimpiya Festivalı böyük müvəffəqiyyətlə keçəcək".

"Baku Crystal Hall"a toplaşmış tamaşaçılar və yüz minlərlə televiziya izləyiciləri təntənəli açılış mərasiminin unudulmaz anlarının şahidi oldular.

Bakı vaxtı ilə saat 20:00-da XV Avropa Gənclər Olimpiya Festivalının təntənəli açılış mərasimi başladı.

Əvvəlcə Azərbaycan Respublikasının dövlət himninin sədaları altında Milli Qvardiyanın əsgərləri dövlət bayrağını təntənəli şəkildə meydana gətirərək ucaltdılar.

Bundan sonra demək olar ki, bütün Olimpiya tədbirlərinin açılış mərasimlərinin ənənəvi hissəsi olan atletlərin paradı başladı.

İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin - Yunanıstanın idmançıları səhnəyə daxil oldular. Digər ölkələrin komandaları onların arxasınca əlifba sırası ilə gəldilər.

İdmançıların keçidini ev sahibi - Azərbaycan atletləri tamamladılar. Üçrəngli bayrağımızı 15 yaşlı cüdoçu, 2018-ci ildə Yeniyetmələrin Yay Olimpiya Oyunlarının və Avropa Kubokunun qalibi Vüqar Talıbov apardı.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və "Baku Crystal Hall"a toplaşmış tamaşaçılar idmançılarımızı hərarətlə salamladılar.

Atletlərin paradından sonra festivala ev sahibliyi edən Azərbaycan haqqında film nümayiş etdirildi. Filmdə ölkəmizin tarixi, mədəniyyəti, təbiəti, adət-ənənələri, eləcə də paytaxt Bakının görməli yerləri haqqında kadrlar nümayiş olundu.

Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini, XV Avropa Gənclər Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov və Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç səhnəyə gəldilər.

XV Avropa Gənclər Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub EYYUBOV çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli Avropa Olimpiya Komitələrinin prezidenti cənab Yanes Kosyançiç.

Hörmətli beynəlxalq və milli federasiyaların rəsmiləri.

Əziz gənc idmançılar, xanımlar və cənablar.

XV Avropa Gənclər Olimpiya Festivalında iştirak etmək üçün Odlar yurdu Azərbaycana gəlmiş bütün dəyərli qonaqları səmimi qəlbdən salamlayır, zəngin mədəniyyətə və tarixə malik ölkəmizə "Xoş gəlmisiniz!" deyirəm.

Azərbaycan yüksək idman nailiyyətlərinə malik bir ölkədir. Bu nailiyyətlərin əsası isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz onun təşəbbüsü ilə Azərbaycan beynəlxalq Olimpiya hərəkatına qoşulmuş, ölkəmizdə Olimpiya komplekslərinin, müxtəlif idman qurğuları və mərkəzlərinin tikintisinə start verilmişdir. Azərbaycanı müasir, dünyəvi, sabit və demokratik bir ölkəyə çevirən Heydər Əliyevin uzaqgörən siyasətini hazırda Azərbaycan Respublikasının Prezidenti və Milli Olimpiya Komitəsinin rəhbəri cənab İlham Əliyev əzmlə davam etdirir. Onun idmançılara göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində əldə edilən nailiyyətlər müqayisə olunmayacaq dərəcədə artmışdır. Hazırda Bakı şəhərində və Azərbaycanın bütün regionlarında 50-yə yaxın Olimpiya İdman Kompleksi fəaliyyət göstərir ki, bu da güclü idmançılar hazırlanması ilə yanaşı, əhalinin sağlam həyat tərzi sürməsinə də hərtərəfli şərait yaradır.

Azərbaycan ən mötəbər beynəlxalq idman tədbirlərinin, idmanın müxtəlif növləri üzrə dünya və Avropa çempionatlarının, dünya kuboku və Qran-Pri yarışlarının keçirilməsində kifayət qədər böyük təcrübəyə malik bir ölkədir. Xüsusilə qeyd etmək istəyirəm ki, bu silsilədən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədri olduğu Təşkilat Komitəsinin rəhbərliyi ilə Bakı şəhərində keçirilmiş ilk Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq miqyaslı idman tədbirləri yüksək peşəkarlığı ilə bütün dünyada əks-sədaya səbəb olmuşdur. Biz əminik ki, bu gün açılışını etdiyimiz və Avropanın 48 ölkəsindən təqribən üç mindən çox gənc idmançının qatıldığı XV Avropa Gənclər Olimpiya Festivalı da ən yüksək səviyyədə keçirəcəyimiz növbəti idman tədbirlərindən biri olacaqdır. Yarışlar Bakıda 12 möhtəşəm idman arenasında idmanın 10 növü üzrə keçiriləcəkdir.

Əziz gənc atletlər, bizim üçün çox sevindirici haldır ki, siz ilk böyük beynəlxalq uğurunuzu məhz Azərbaycanda qazana bilərsiniz. Heç şübhəsiz deyə bilərik ki, sizin sıranız gələcək Olimpiya, dünya və Avropa çempionları olacaqdır. Əminik ki, siz gənclər aparacağınız idman mübarizəsi ilə yanaşı, bir-birinizlə yaxından tanış olacaq, özünüzə çoxlu dost və rəfiqə tapacaq, öz bacarıq, mədəniyyət və tarixlərinizi də paylaşacaq, o cümlədən keçmiş və müasirliyin vəhdətini təşkil edən əzəmətli Bakımızın füsunkar gözəlliyindən zövq alacaqsınız.

Ənənəvi olaraq bu festivalın işinə də könüllülər cəlb olunmuşdur. 3500 gənc könüllü festivalın təşkili və yüksək səviyyədə keçirilməsində yaxından iştirak edəcək. Biz onların hər birinə dərin təşəkkür və ehtiramımızı bildiririk.

Möhtərəm cənab Prezident, XV Avropa Gənclər Olimpiya Festivalının Təşkilat Komitəsi Avropa Olimpiya Komitələrinin qarşımıza qoyduğu bütün tələbləri yerinə yetirmişdir və Azərbaycan bu festivalın keçirilməsinə tam hazırdır.

Fürsətdən istifadə edib bu mötəbər yarışın keçirilməsində Azərbaycana etimad göstərmiş Avropa Olimpiya Komitələrinin rəhbərliyinə dərin minnətdarlığımızı bildiririk.

Bütün gəncləri, bütün idman ictimaiyyətini bu bayram münasibətilə bir daha ürəkdən təbrik edir, gənc idmançılara qələbə sevincləri və azarkeşlərin böyük marağına səbəb olacaq gərgin mübarizə nümayiş etdirməyi arzulayıram.

Əziz gənclər, qoy, bu festival sizin üçün idman, sülh və dostluq bayramı olsun.

x x x

Sonra Avropa Olimpiya Komitələrinin prezidenti Yanes KOSYANÇİÇ çıxış edərək dedi:

- Azərbaycan Respublikasının Prezidenti.

Zati-aliləri cənab İlham Əliyev.

Hörmətli rəsmilər.

Avropa Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvləri.

Avropa Milli Olimpiya Komitələrinin prezidentləri və katibləri.

Hörmətli idmançılar.

Əziz azərbaycanlı idmansevərlər.

Avropa Olimpiya Komitəsinin nümayəndələri üçün Bakıya, Odlar yurdunun küləklər şəhərinə gəlmək, elə, öz evimizə gəlmək deməkdir. Dörd il öncə biz sizin əvəzolunmaz köməyinizlə ilk Avropa Oyunlarını təşkil etdik. Həmin Oyunlar möhtəşəm hadisə oldu və Belarusda, Minskdə ikinci Oyunlar keçirildikdən, həmçinin Polşanın Malopolska bölgəsinin Krakov şəhərində üçüncü Oyunların təşkil olunması haqqında qəbul edilmiş qərardan sonra fəxrlə deyə bilərik ki, biz birlikdə yeni ənənəni başladıq. Biz yeni Avropa Olimpiya irsinin təməlini qoyduq.

*(ardı 3-cü səhifədə)*

# XV Avropa Gənclər Olimpiya Festivalının təntənəli açılış mərasimi keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər

*(əvvəli 2-ci səhifədə)*

Sizin təşkilatçılıq bacarığınıza və bu sahəyə bağlılığınıza bizim heç bir şübhəmiz yoxdur. Sizin qətiyyətiniz, işinizin keyfiyyəti, könüllülərinizin mehribanlığı bizə məlumdur. Biz bilirik ki, ölkənizin ən yaxşı sərmayəsi onun gənclərinə qoyulan sərmayədir.



Hörmətli idmançılar,

Avropa Gənclər Olimpiya Festivalı gələcək çempionlar və Olimpiya medalçıları üçün əsl sınaq meydanıdır. Bu, sizin üçün çox az sayda istisnalarla çox idman növlü ilk Olimpiya təcrübəsidir. Bu, sizdə idmanın inkişafında yeni səhifənin açılması deməkdir. Burada sizin bacarığınızı nümayiş etdirmək üçün nadir şans var. Bu şans göstərir ki, siz yarışlarda qələbəyə qadirsiniz və ola bilsin ki, digər Avropa ölkələrində sizinlə həmyaşıd olan qız və oğlanlardan daha yaxşısınız. Bu, həmçinin Avropada idmançıların yeni nəslinin Olimpiya idealları, bütün xalqlar arasında sülh, dostluq və əməkdaşlıq amalları, bütövlük, inklüzivlik, həmrəylik, düzgünlük və ədalətli oyun ideyaları ilə formalaşdırılmasını sübuta yetirmək fürsətidir.

Mən, həmçinin Bakı sakinlərini və Azərbaycan xalqını səmimi qəlbdən salamlayıram. Bizi bir daha qəbul etdiyinizə görə çox sağ olun!

x x x

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XV Avropa Gənclər Olimpiya Festivalını açıq elan etdi.

Beynəlxalq Olimpiya Komitəsinin bayrağı bu qurumun himninin sədaları altında Azərbaycanın bayrağı ilə yanaşı ucaldıldı.

Sonra Fəxriyə Tağızadə atletlər, Ələkbər Həsənov hakimlər və Rəşad Əbdürrəhmanov məşqçilər adından təntənəli şəkildə and içdilər. Bu andlar bütün iştirakçılara və tamaşaçılara sağlam rəqabət, ədalətli hakimlik və Olimpiya hərəkatının prinsip və ideallarına riayət edilməsinin ən yüksək prioritetə sahib olmasını xatırladır.

Daha sonra ən həyəcanlı an gəlib yetişdi və 2004-cü ildə Afina Olimpiadasının qalibi, yunan-Roma güləşçisi Fərid Mansurov XV Avropa Gənclər Olimpiya Festivalının məşəlini "Baku Crystal Hall"un məşəl kasasına gətirdi.

Bu zaman ekranda "Məşəlin yolu" filmi nümayiş olundu. Kadrlarda məşəlin paytaxtın bütün idman obyektləri boyunca möhtəşəm səyahəti və statistika təqdim edildi. Festivalın məşəli açılış mərasiminin keçirildiyi "Baku Crystal Hall"a çatana qədər Roma şəhərindən çox böyük yol qət edib.



x x x

Beynəlxalq Olimpiya Komitəsinin bayrağı arenaya gətirildi. Bayrağı Azərbaycanın tanınmış idmançıları, Olimpiya çempionları Elnur Məmmədli (cüdo), Zemfira Meftaxetdinova (atıcılıq), Nazim Hüseynov (cüdo), Namiq Abdullayev (güləş), Rəfiqə Şabanova (həndbol) və Lyudmila Şubina (həndbol) arenaya gətirdilər.

XV Avropa Gənclər Olimpiya Festivalının məşəli alovlandırıldı. Məşəl yarışlar bitənədək yanacaq, şəhərimizin mayakı olacaq.

Məşəlin yandırılmasından sonra "Qələbə elementləri" səhnə şousu nümayiş etdirildi. "Welcome to Azerbaijan" ("Azərbaycana xoş gəlmisiniz!") - Avropa Gənclər Olimpiya Festivalının açılış mərasiminin art şousunun birinci hissəsi belə adlanır. Ekranlarda Bakının fantastik mənzərəsi görünür. Bu mənzərəni fantastik edən sadəcə, onun gözəlliyi yox, həm də burada şəhərin bütün tarixi və müasir görməli yerlərinin bir araya gəlməsidir. Bəli, bu, Bakıdır! Həm qədim, həm də çox müasir. Ənənələri qoruyan və yeniliklərə açıq Bakı. Bu yeniliyin rəmzi fəal və həyat gücü ilə zəngin gənclərdir. Səhnədəki dinamik kompozisiyada rəqqaslar, akrobatlar, parkur və breykdans ustaları öz məharətlərini göstərirlər. Bütün art şounun qurulușunda təxminən beş yüz gənc iştirak edib. Bu günün hekayəsi zəfərə aparan yol haqqındadır.

Sonra "Külək haqqında əfsanə" süjeti təqdim olundu. Bu hekayənin baş qəhrəmanları oğlan və qızdır. Onlar öz valideynləri ilə Bakının rəmzlərindən biri olan küləyin adı ilə şəhərin yaranmasını söyləyirlər. Azərbaycan - Odlar Yurdudur, Bakı isə küləklər şəhəridir. O, Xəzər dənizi ilə əhatə olunan yarımadada, hər üç tərəfdən küləyə açıq olan məkanda yerləşir. Ekranda Azərbaycanın təbiətini, onun zənginliyi və nadirliyini görürük.

Daha sonra "Şəhərin yaranması" kompozisiyası təqdim edildi. Şəhərin ruhu oyanır. Bu şəhərdə insan yaratmaq, sevmək və yaşamaq istəyir. Səhnədə şəhərin salınması simvolik olaraq nümayiş etdirildi. Səhnədə iri butafor kərpiclər, pilləkənlər, fənərlər və evlər daşıyan rəqqaslar "Şəhərin doğulması" teatr-rəqs tamaşasını ifa etdilər. Akrobat və rəqqaslar hərəkətli və müasir paytaxtın mənzərəsini yaratdılar. Bu nömrədə çoxlu rekvizit və dekorasiyalardan istifadə edilib (evlərin fasadı, nəhəng kərpiclər, gül ləkləri, ağaclar, skamyalar, fənərlər). Kompozisiyada şəhərin necə yarandığı nümayiş olundu. Beləliklə, səhnədə rəmzi şəhərin tikintisi sona çatdı və işlərin yekunlaşmasını bayram etmək vaxtı gəldi.

Bunun ardınca "Şəhər Günü Bayramı" adlı vokal-xoreoqrafik kompozisiya təqdim olundu. Səhnədə vokalçılar, musiqiçilər, rəqqaslar və aktyorlar çıxış etdilər. İstənilən ölkənin xalqını yaxşı tanımaq



üçün yəqin ki, onun bayramlarını necə keçirdiyinə baxmaq lazımdır. Azərbaycanın bayramlarında mədəniyyət zənginliyi, milli kolorit və xalqın ənənəsi yaşayır. Əlbəttə ki, hər bir qonaq məşhur Azərbaycan qonaqpərvərliyini mütləq yüksək qiymətləndirir. Paytaxt Bakının əsas gözəlliyi onun nadir memarlığından və sakinlərindən qaynaqlanır. Paytaxtın küçələri ilə gəzişərkən qeyri-ixtiyari olaraq bu şəhərin öz ab-havası və ruhu olduğunu düşünürsən. Burada insanlar da fərqlidir. Onlar qonaqpərvər və mehribandır, ilk çağırışında sənə kömək etməyə hazırdırlar. Onlar ürəyiaçıq və səmimidirlər. Bakı şəhərinin əsl dəyəri də elə bundadır.

Açılış mərasiminin daha bir maraqlı məqamı "Elementlər" adlanır. "Həyat kitabı", "Od", "Xarıbülbül gülü", "Çörək" və "Zeytun budağı" - bu rəmzlərin hər biri adət-ənənələri, nəsillərin enerjisini və xalq mədəniyyətini özündə əks etdirir. Səhnədə artistlər qismində Azərbaycan Gimnastika Federasiyasının idmançıları çıxış edirlər.

"Həyat kitabı" - əcdadların müdrikliyi və ruhunun gücü insana doğru yol seçməyə kömək edir. Həyat kitabı müdriklik və bilik mənbəyidir.

"Od" - ruha və millətin gücünə inam atəşi. O, insanları ruhlandırır. Zərdüştlərin Atəşgah məbədi sönməyən alovu ilə əsrlər boyu bütün dünyanın zəvvarlarını cəlb edirdi: illər və əsrlər keçir, dünya









dəyişir, məbəd isə yerində qalır və iztirab çəkən insanların yollarına nur saçır. Yerdən çıxan alov idmançılarımıza zəfərə gedən yolda hər zaman kömək edir.

"Xarıbülbül gülü" - görünməmiş gözəlliyə malik Xarıbülbül gülü yalnız Azərbaycanda bitir. Öz görünüşünə görə xarıbülbül gülü bülbülə bənzəyir: iki ləçək onun qanadları, mərkəzdəki bir ləçək isə dimdikli quş başına bənzəyir. Gülün adı da elə bundan əmələ gəlib: "xar" Azərbaycan dilində tərcüməsi "tikan", "bülbül" isə - bülbül deməkdir. Bir çox əfsanə və rəvayətlər bu valehedici və zərif gül ilə bağlıdır.

"Çörək" - ananın bişirdiyi çörək yaşam gücü verir. Nəsil, inamın gücü və Vətən sevgisi qəhrəmanı zəfərə aparan yola gətirir. Bu an muğam səslənir. 2008-ci ildə UNESKO muğamı bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri kimi elan edib.

"Zəfər" - idmançılara güc və çeviklik, enerji və dözümlülük, mübarizlik və dəqiqlik lazımdır. İndi bütün bu keyfiyyətləri gənc azərbaycanlı idmançılar arenada nümayiş etdirirlər. Bu idmançılardan hər biri, əlbəttə ki, zəfərin rəmzi olan zeytun budağına layiqdir.

Nəhayət, təntənəli mərasimin "Final" kompozisiyası başladı. Avropa Gənclər Olimpiya Festivalının - Bakı 2019-un hər bir iştirakçısı indi öz arzusunu, öz yolunu xatırlayır və ümid edir ki, bu yol onu qələbəyə aparacaq. Bütün idmançılara uğurlar, layiqli rəqiblər və qələbə əzmi arzulayırıq. Qoy, doğma evi xatırladan çörək, arzuya aparan alov, əcdadların güc və müdrikliyini verən kitab, sülh və sevgi rəmzi olan xarıbülbül hər zaman onlarla olsun. O zaman zəfər rəmzi olan zeytun budağının başlarının üzərində ucaldılacaq an daha da yaxınlaşacaq.

Sonda bütün iştirakçı ölkələrin bayraqları səhnədə dalğalandı.

Bakı 2019 XV Avropa Gənclər Olimpiya Festivalının təntənəli açılış mərasimi başa çatdı.

Beləliklə, Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən daha bir mərasimlə festivalın tarixində mühüm yer tutacaq növbəti parlaq səhifə yazdı.

Olimpiya dünyası


## Əməliyyat Komitəsi Bakı-2019-la bağlı mətbuat konfransı keçirib

***XV Avropa Gənclər Olimpiya Festivalının Əməliyyat Komitəsi mətbuat konfransı keçirib. Mətbuat konfransında gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, baş katibi Raffaele Pagnozzi və Avropa Olimpiya Komitələri Əlaqələndirmə Komissiyasının rəhbəri Corce Visaçki iştirak ediblər.***

Nazir Azad Rəhimov bildirib ki, yarışların keçirildiyi idman obyektləri və Atletlər kəndi festivala tam hazır vəziyyətə gətirilib. Nazir qeyd edib ki, 7 gün ərzində 48 ölkənin idmançıları mükafatlar uğrunda mübarizə aparacaqlar.

Atletlərin xərclərinin ödənilməsinə münasibət bildirən A.Rəhimov qeyd edib ki, xaricdən gələn hər bir idmançı 90 avro ödəyir. "Həmin pula gündə 3 dəfə yemək daxildir. Nəqliyyat məsələlərini də iştirak edən ölkə özü həll edir", - deyə nazir bildirib.

Nazir qeyd edib ki, açılış və bağlanış mərasimlərinə biletlər tam satılıb.

Onun sözlərinə görə, festivalda Azərbaycan 122 idmançı ilə təmsil olunur. Heyətdə güləşçilər və atletlər sayca üstünlük təşkil edirlər. Bakı 2019-da atletlər idmanın 10 növü - gimnastika, atletika, basketbol,




velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş üzrə yarışlarda qüvvələrini sınayırlar.

Bakıda yenidən olmasından məmnunluğunu ifadə edən Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç bildirib ki, Bakı festivalın təşkilinə tam hazırdır. Şəhər yalnız irimiqyaslı tədbirlərin keçirilməsi üçün lazım olan infrastruktura malik deyil. Bakı özündə digər əsas komponentləri - yüksək təşkilatçılıq, həvəs və səmimiyyəti birləşdirir.

Avropa Olimpiya Komitələri Əlaqələndirmə Komissiyasının rəhbəri Corce Visaçki qeyd edib ki, yüksək səviyyədə təşkil edilən festival idmançılar üçün Olimpiyaya gedən yolda böyük təkan olacaq.

Sonda jurnalistlərin sualları cavablandırılıb.

## Atletlər kəndində "Olimpiya mədəniyyəti və təhsil proqramı" pavilyonunun açılışı olub

***Azərbaycan Milli Olimpiya Komitəsi, Təhsil, Gənclər və İdman nazirlikləri, Bakı- 2019 Əməliyyat Komitəsinin dəstəyi ilə "Olimpiya mədəniyyəti və təhsil proqramı"nın iyulun 22-də Atletlər kəndində pavilyonunun açılış mərasimi olub.***

Pavilyonda Atletlər kəndində məskunlaşan idmançılara, rəsmi nümayəndələrə və qonaqlara proqram vasitəsilə Bakıdan seçilmiş 49 təhsil müəssisəsinin nümayəndələri tərəfindən Avropa ölkələrinin mədəniyyəti, incəsənəti, tarixi və idmanı barədə məlumat təqdim edilir. Pavilyonun qarşıya qoyduğu digər məqsəd gənc idmançılar arasında Olimpiya dəyərləri, mədəniyyətlərarası əlaqə, sülh və dostluğu təşviq etməkdir.

Mərasimdə Gənclər və İdman naziri Azad Rəhimov, Təhsil naziri Ceyhun Bayramov, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, MOK-un baş katibinin müavini Azər Əliyev, üzv ölkələrin Milli Olimpiya komitələrinin rəsmiləri, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, müxtəlif ölkələrdən olan qonaqlar iştirak ediblər.

Çingiz Hüseynzadə tədbirdə çıxış edərək dostluğu, qarşılıqlı hörməti, sülhü və mükəmməlliyi özündə ehtiva edən Olimpiya Hərəkatının Avropa Gənclər Olimpiya Festivalında təşəkkül tapdığını bildirib. O deyib ki, idmançılar və məktəblilər Olimpiya dəyərlərinin təbliğində əsas aspektləri təşkil edirlər.

Gənclər və İdman naziri Azad Rəhimov Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalının nəinki Azərbaycanda, Avropanın bütün ölkələrində bədən tərbiyəsi və idmanın inkişafı baxımından töhfəsini yüksək qiymətləndirib.

Təhsil naziri Ceyhun Bayramov məktəblərin və şagirdlərin bu proqramdakı rolundan danışıb. Çıxışlardan sonra tədbir iştirakçıları pavilyonla tanış olublar.

Sonda məktəblilərin hazırladıqları bədii hissə təqdim edilib.



## Media nümayəndələri Atletlər kəndində yaradılan şəraitlə tanış olublar

İyulun 22-də Bakı-2019 XV Avropa Gənclər Olimpiya Festivalını işıqlandıran KİV nümayəndələri üçün media tur təşkil olunub. KİV nümayəndələri Atletlər kəndində olublar. Yerli və xarici jurnalistlər atletlərin məskunlaşdığı məkanla daha yaxından tanış olmaq imkanı qazanıblar. Tədbirdə qonaqlar Atletlər kəndində əsas obyektlərə baş çəkiblər.

Təşkilatçılar jurnalistlərə Akkreditasiya Mərkəzi, poliklinika, yeməkxana, Bayraqlar Xiyabanı, Atletlər Kəndinin Koordinasiya Mərkəzi və digər yerlər barədə ətraflı məlumat veriblər. Bildirilib ki, Atletlər kəndindəki binadan 6-sı yarış iştirakçıları üçün ayrılıb. Qonaqlar üçün hər axşam konsert proqramı da təşkil olunur.

İdmançılarla görüşüb, ünsiyyətdə olmaq, müsahibə almaq istəyən KİV nümayəndələri də istəklərini həyata keçirmək imkanı əldə ediblər.



## "Avropa Gənclər Olimpiya Festivalında güləşçilərimizin 15 medal qazanacağına ümid edirəm"

Azərbaycan Güləş Federasiyasının (AGF) rəhbəri Namiq Əliyev yeniyetmələrdən ibarət yığmaların üzvləri ilə görüşüb.

Namiq Əliyev İtaliyanın Faenza şəhərində keçirilən Avropa çempionatında medal qazanmış güləşçiləri və müvafiq milli komandaların məşqçilərini mükafatlandırıb.

Jurnalistlərin suallarını cavablandıran AGF-nin rəhbəri deyib: "Avropa Gənclər Olimpiya Festivalında komandamızın 15 medal qazanacağına ümid edirəm. Qızıl medalların sayının çox olacağına inanıram. Azərbaycan təşkilatçı ölkə kimi güləşin festivalın proqramına salınmasına nail olub. Müəyyən çəki dərəcələri ilə bağlı problem var idi. Ancaq Dünya Güləş Birliyinin (DGB) bürosunda təkidlərimiz nəticəsində güləşin hər üç növü üzrə altı çəki dərəcəsinin proqrama salınmasına qərar verildi".

Namiq Əliyev bu il əsas hədəfin Nur-Sultanda (Qazaxıstan) keçiriləcək dünya çempionatı olduğunu diqqətə çatdırıb: "Dünya çempionatı güləşdə ilk lisenziya verən yarışdır. Bu dəfə lisenziya qazanmaq çətin olacaq. Çünki olimpiadada hər çəki dərəcəsində 16 güləşçi iştirak edəcək. II Avropa Oyunlarında komandamız kifayət qədər uğurla çıxış etdi. Bu yarışlarda əsas heyətlə iştirak etmirdik. Bununla belə, ölkəmizin əldə etdiyi beş qızıl medaldan üçü güləşçilərin payına düşdü".

Namiq Əliyev onu da qeyd edib ki, gələn il Avropa Olimpiya təsnifat turniri Bakıda keçirilə bilər: "Avropa Olimpiya təsnifat turnirini Bakıda keçirmək istəyirik. Həmişə belə məqamlarda ermənilər hay-küy salaraq bu cür yarışların Bakıda təşkilinə mane olmaq istəyirlər. İndidən Beynəlxalq Olimpiya Komitəsinə yazırlar ki, bu yarış Bakıda keçirilsə, təzyiq altında olacağıq və s. Sentyabrın 13-də keçiriləcək DGB-nin İcraiyyə Komitəsinin iclasında yarışın təşkilatçısı məlum olacaq. Hesab edirəm ki, turnirin keçirilməsi bizə həvalə ediləcək".

## Təmsilçilərimiz dünya gimnastradasında çıxış ediblər

Avstriyanın Dornbirn şəhərində 16-cı dünya gimnastradası təşkil edilib. Yarışda dünyanın 66 ölkəsindən 20 minə yaxın idmançı qüvvəsini sınayıb. Gimnastradada Azərbaycan təmsilçiləri də iştirak ediblər.

Gimnastika növləri üzrə yığma komandalarımızın üzvləri - Nərminə Hüseynova, Elçin Məmmədov, Daniel Abbasov, Murad Rəfiyev, Sərvər Əliyev, Simarə Cəfərova, Güllü Ağalarzadə, Narın Qurbanova, Nərmin Cahangirova, Emiliya Nurəliyeva, Ruslan Eyvazov, Seymur Cəfərov, Murad Əkpərov və Sənan Mahmudludan ibarət komandamız ilk öncə festivalın açılış mərasimində çıxış ediblər. Daha sonra onlar bu günlər ərzində 3 dəfə müxtəlif arenalarda öz çıxışlarını nümayiş etdiriblər və gimnastlarımızın çıxışları ayaqüstə alqışlarla qarşılanıb.




Hər dörd ildən bir keçirilən, yaşı, cinsi, irqi, dini və sosial vəziyyətdən asılı olmayaraq, hər kəsi bir araya gətirən dünya gimnastrada festivalında Azərbaycan komandası artıq ikinci dəfədir ki, təmsil olunur.



## *Sərbəst güləşçilərimiz dünya çempionatına Göygöldə hazırlaşırlar*

Sərbəst güləş üzrə yığma komandamız növbəti təlim-məşq toplanışına start verib.

Baş məşqçi Saypulla Absaidov, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında 20-yə yaxın sərbəst güləşçi Göygöl Olimpiya İdman Kompleksində hazırlığa başlayıb. Avqustun 4-dək davam edəcək toplanışda əsasən fiziki hazırlığa diqqət yetiriləcək.

Qeyd edək ki, təlim-məşq toplanışı sentyabrda Qazaxıstanın paytaxtı Nur-Sultanda keçiriləcək dünya çempionatına hazırlıq xarakteri daşıyır.

## Bakı Nəqliyyat Agentliyi Avropa Gənclər Olimpiya Festivalı ilə bağlı sürücülərə müraciət edib

Paytaxtımızda keçirilən XV Avropa Gənclər Olimpiya Festivalının səmərəli təşkili məqsədilə Bakı Nəqliyyat Agentliyi tərəfindən nəqliyyat tədbirlərinin icrası davam etdirilir.

BNA
Bakı Nəqliyyat Agentliyi

Müəyyən olunmuş marşrutlar üzrə çəkilmiş sarı zolaqlar idmançıların və digər rəsmilərin idman obyektlərinə vaxtında, təhlükəsiz çatmasını təmin etmək məqsədi daşıyır. Lakin bəzi şəxsi nəqliyyat vasitəsi sürücüləri bir çox hallarda zolağa daxil olaraq avtobusların qarşısına çıxmaqla, ara məsafəsi gözləmədən arxası ilə irəliləməklə və ya ani manevrlər etməklə hərəkətə mane olaraq qəza şəraiti yaradırlar.

Bakı Nəqliyyat Agentliyi hərəkət iştirakçılarını xüsusən də, sürücüləri festival müddətində yol hərəkəti qaydalarına, o cümlədən də sarı zolağın tələbinə əməl etməyə çağırır. Əvvəlki oyunlarda olduğu kimi festivalın davam etdiyi günlərdə də hərəkət iştirakçılarının tətbiq edilən müvəqqəti dəyişikliklərə anlayışla yanaşacaqlarına ümid edir.

* * *

XV Avropa Gənclər Olimpiya Festivalı ilə əlaqədar iyulun 28-dək tədbirlərin keçirildiyi ərazi üzrə küçə və prospektlərdə yük avtomobillərinin hərəkətinə məhdudiyyət qoyulmaqla istiqamət dəyişdirilir.

Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov bildirib ki, bu mötəbər beynəlxalq tədbirin keçirildiyi ərazilərdə hərəkətin təhlükəsizliyinin təmin edilməsi və Bakıda süni sıxlığın yaranmaması məqsədilə yük avtomobillərinin sürücülərinə, sahiblərinə və daşıyıcılara müvəqqəti olaraq, yəni, iyulun 28-dək şəhərin mərkəzi istiqamətində yük maşınlarından istifadə etməmələri tövsiyə olunur.

Belə ki, Xırdalan dairəsi Beynəlxalq Avtovağzal Kompleksi yanından, Lökbatan dairəsindən yük avtomobillərinin şəhərin mərkəzinə doğru hərəkətinə məhdudiyyət tətbiq edilir və istiqamət dəyişdirilir.

Baku 2019
EUROPEAN YOUTH OLYMPIC FESTIVAL

Yük avtomobillərinin sürücülərinə, sahiblərinə və daşıyıcılarına mövcud vəziyyəti nəzərə alıb alternativ variantlar üzrə hərəkət etmələri tövsiyə olunur.

# XV Avropa Gənclər Olimpiya Festivalı

B a k ı - 2 0 1 9



# Azərbaycan idmançıları XV Avropa Gənclər Olimpiya Festivalında 10 medal qazanıblar



*(əvvəli 1-ci səhifədə)*

## Güləş

Avropa Gənclər XV Olimpiya Festivalı (EYOF) çərçivəsində güləş yarışlarına iyunun 21-də start verilib.

Heydər Əliyev adına İdman-Konsert Kompleksində keçirilən yarışlarda idmançılarımız güləşin hər 3 növü üzrə 6 çəki dərəcəsində mübarizə aparıblar.

İlk yarış günündə həm sərbəst, həm də yunan-Roma güləşi üzrə 45 kq və 55 kq-da yarışlar keçirilib.

Əbülfəz Nəsirov (55 kq) ilk görüşdə cəmi 30 saniyə ərzində britaniyalı həmkarını üstələyib. Gürcüstan və Rusiyadan olan rəqiblərinə də vaxtından əvvəl qalib gələn sərbəst güləşçimiz finala yüksəlib. Ancaq həlledici görüşdə İtaliya idmançısına məğlub olan Əbülfəz gümüş medalla kifayətlənib.

Təmsilçimiz Murad Haqverdiyev (45 kq) A qrupunda keçirdiyi ilk görüşdə Rusiya güləşçisinə qalib gəlib. Ardınca qrupda Belarus və Türkiyə təmsilçilərindən güclü olan həmyerlimiz yarımfinala vəsiqə qazanıb. Bu mərhələdə polşalı rəqibindən üstün olan güləşçimiz finala yüksəlib. Son görüşdə Gürcüstan idmançısından da güclü olan Murad Haqverdiyev yığma komandamızın aktivinə qızıl medal qazandırıb.

Yunan-Roma güləşçimiz Fərid Sadıxlı (55 kq) da festivala inamlı start verib. Həmyerlimiz ilk görüşdə İtaliya idmançısını məğlub edərək 1/4 finala yüksəlib. Gürcüstan və Rusiya idmançılarını da mübarizədən kənarlaşdıran Fərid finala vəsiqə qazanıb. Finalda Türkiyə güləşçisinə qalib gələn Fərid Sadıxlı festivalın qızıl medalına sahib çıxıb.

Nihat Məmmədli (55 kq) də ilk görüşdən tam üstünlüklə ayrılaraq adını 1/4 finala yazdırıb. Lakin idmançımız bu mərhələdə gürcüstanlı rəqibinə məğlub olub. Təsəlliverici görüşdə Fransa nümayəndəsinə cəmi 1 dəqiqə ərzində qalib gələn Nihat Məmmədli 3-cü yer uğrunda mübarizə aparmaq imkanı əldə edib. Həlledici qarşılaşmada türkiyəli güləşçiyə heç bir şans verməyən Nihat Məmmədli bürünc medala sahib çıxıb.

Beləliklə, güləşçilərimiz festivalın birinci günündə 4 (2 qızıl, 1 gümüş və 1 bürünc) medal qazanıblar.

Yarışların ikinci günündə idmançılar 7 çəki dərəcəsində mübarizə aparıblar. Sərbəst güləşçilərimizdən Mircavad Nəbiyev (48 kq) ilk görüşdə Rusiya yığmasının üzvü ilə qarşılaşmanın son saniyələrində qələbəni əldən verib. Rəqib finala yüksəldiyi üçün M.Nəbiyev mübarizəni təsəlliverici görüşlə davam etdirib və türkiyəli həmkarına ilk hissədə qalib gəlib. Sərbəst güləşçimiz bürünc medal uğrunda isveçrəli Tomas Fişerlə qarşılaşıb. Mircavad Nəbiyev rəqibini 10:0 hesabı ilə məğlub edərək bürünc medala layiq görülüb.

Millimizin üzvü Sabir Cəfərov (60 kq) ilk mərhələdə macarıstanlı rəqibi Marsel Deliyə 10:0, daha sonra belaruslu Anatoliy Hramykaya 12:1 hesabı ilə qalib gələrək, yarımfinala vəsiqə qazanıb. Yarımfinalda İvan Stoyanova 5:1 hesabı ilə qalib gələn idmançımız finala vəsiqəni təmin edib. Güləşçimiz qızıl medal uğrunda Rusiya təmsilçisi Fyodor Baltuevlə qarşılaşıb. Həlledici görüşdə rəqibinə uduzan həmyerlimizin qazancı gümüş medal olub.

Yunan-Roma güləşi üzrə təmsilçimiz Qurban Qurbanov (48 kq) ilk qarşılaşmada Polşadan olan həmkarı Kaçper Karaskieviçə tam üstünlüklə qalib gəlib - 8:0. O, daha sonra türkiyəli Emin Çakırı 10:0, Maksim Stupakeviçi (Belarus) 5:0 hesabı ilə məğlub edərək finala vəsiqə qazanıb. Həlledici görüşdə güləşçimiz gürcüstanlı Xviça Abduladze ilə qarşılaşıb. Həlledici qarşılaşma həmyerlimizin qələbəsi ilə başa çatıb və Qurban Qurbanov EYOF-un qalibi olub.

Digər güləşçimiz Həsrət Cəfərov (60 kq) litvalı güləşçi Donatas Rindeikisi çətinlik çəkmədən məğlub edib - 12:0. Güləşçimiz daha sonra Belarus təmsilçisi Nikita Muraşkanı məğlub edərək yarımfinala vəsiqə qazanıb - 13:5. Yarımfinalda idmançımızın rəqibi Andrea Setti (İtaliya) olub. Rəqibini 6:0 hesabı ilə məğlub edən güləşçimiz finalda iştirak etmək hüququ qazanıb. Finalda rusiyalı rəqibi Maqomed Qiqiyevi mübarizədən kənarlaşdıran güləşçimiz yarışın baş mükafatını qazanıb.

Qadın güləşçimiz Gültəkin Şirinova (46 kq) da inamla finala qədər irəliləyib. O, finlandiyalı rəqibi Jutta Ala-Rantanı 7:4, Belarus idmançısı Pertsava Tatisiananı 6:1, yarımfinalda fransalı Jastin Fanni Viquruksu 10:3 hesabı ilə məğlub edərək həlledici mərhələyə vəsiqə əldə edib. Qızıl medal uğrunda görüşdə idmançımız rumıniyalı Georgiana-Lavinia Antuca ilə üz-üzə gəlib. Ancaq son görüşdə rumıniyalı rəqibinə uduzan Gültəkin gümüş medalla kifayətlənib.

Mərziyə Sadıqova (61 kq) isə finala gedən yolda ilk görüşdə Ukrayna idmançısı Manola Skobelskadan üstün olub - 6:3. Sonra rusiyalı Alina Kasabievanı məğlub edərək yarımfinala yüksəlib. Finala vəsiqə uğrunda mübarizədə rəqibi türkiyəli Elmas Çeliki 1:0 hesabı ilə məğlub edən güləşçimiz həlledici qarşılaşmada İtaliya idmançısı Aurora Russo ilə mübarizə aparıb. Xanım güləşçimiz final görüşünü ikinci yerdə başa vurub və gümüş medala sahib çıxıb. Beləliklə, güləşçilərimiz ikinci yarış günündə 6 (2 qızıl, 3 gümüş və 1 bürünc) medalla başa vurublar.

Bugünə qədər EYOF çərçivəsində Azərbaycan güləş yığmasının aktivində 10 (4 qızıl, 4 gümüş və 2 bürünc) medal var.

## Tennis

İyulun 21-də Bakı Tennis Akademiyasında XV Avropa Gənclər Olimpiya Festivalının tennis yarışları start götürüb. Bakı-2019-un tennis yarışlarında oğlanlar və qızlar fərdi və qoşa kateqoriyalarda mübarizə aparırlar.

Yarışların ilk günündə Azərbaycanın iki idmançısı korta çıxıb. Qızların fərdi yarışlarında Polina Drobişeva slovakiyalı Salma Druqdova ilə qarşılaşıb. Təmsilçimiz bu görüşdə rəqibinə 0:2 (6:1, 6:0) hesabı ilə məğlub olub.

Tamerlan Əzizov isə fərdi yarışda italiyalı Daniele Miniginini sınağa çəkib. Tennisçimiz italiyalı rəqibinə 0:2 (4:6, 3:6) hesabı ilə uduzub.

Yarışların ikinci günündə oğlanlar və qızlar fərdi və qoşa kateqoriyalarda iştirak ediblər.

Azərbaycan tennisçilərindən Kənan Qasımov Alessio Basile (Belçika) ilə qarşılaşıb. Tennisçimiz 1 saat 47 dəqiqə sürən qarşılaşmada rəqibinə məğlub olub.

Xanım tennisçimiz Alina Hüseynova isə Jülyet Bovi (Belçika) ilə qarşılaşmadan məğlub ayrılıb.

Tennis yarışları AOK-un qaydaları və Beynəlxalq Tennis Federasiyası tərəfindən qəbul edilmiş tennis qaydalarəna uyğun keçirilir.

## Atletika

XV Avropa Gənclər Olimpiya Festivalı çərçivəsində keçirilən atletika yarışlarına iyulun 22-də start verilib.

Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən yarışlarda 46 ölkədən 641 idmançı iştirak edir. Azərbaycan bu yarışlarda 18 idmançı ilə təmsil olunur.

Festivalın atletika yarışlarının birinci günündə yarışlar iki sessiyada keçirilib. Səhər sessiyasında atletlər 100 və 800 metr məsafəyə qaçış, uzunluğa tullanma və nüvətələmə növlərində mübarizə aparıblar. Axşam sessiyasında 110 metr məsafəyə maneələrlə qaçış, 400 metr məsafəyə qaçış, 10 kilometr məsafəyə idman gəzişi, uzunluğa və hündürlüyə tullanma idman növləri üzrə yarışlar təşkil olunub.



Səhər sessiyasında mübarizə aparan yığma komandamızın üzvləri mərhələ adlaya bilməyərək mübarizəni dayandırıblar. Qızların nüvətələmə yarışında təmsilçimiz Günel Hüseynova təsnifat mərhələsində 12,20 m nəticə ilə 20 iştirakçı arasında sonuncu olub.

Qızların 800 m məsafəyə qaçış yarışında da 20 atlet mübarizə aparıb. 2 dəqiqə 42,84 saniyə nəticə göstərən Günel Manafova I mərhələdə 20-ci yer tutub.

Digər atletimiz Fəxriyyə Tağızadə isə qızların 100 m məsafəyə qaçış yarışında sürətini yoxlayıb. O, I mərhələdə 12,27 saniyə nəticəyə nail olub. Atletimiz bu nəticə ilə 20 idmançı arasında 15-ci olub.

Oğlanların 100 m məsafəyə qaçış yarışlarında çıxış edən Aleksey Ələkbərov da I mərhələdə sonuncu yeri tutub. O, start xəttinə çıxan 20 iştirakçı arasında 11,43 saniyə nəticə göstərib.

Qeyd edək ki, atletika yarışlarına iyulun 27-də yekun vurulacaq.

## Voleybol

İyulun 22-də XV Avropa Gənclər Olimpiya Festivalında oğlan və qızlardan ibarət voleybolçuların mübarizəsinə də start verilib.

A qrupunda yer alan Azərbaycanın oğlanlardan ibarət voleybol komandası Almaniya yığması ilə qarşılaşıb. Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzində keçirilən görüş rəqib komandanın 3:0 (31:29, 25:19, 25:22) hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, oğlanlar arasında voleybol yarışlarında A qrupunda Azərbaycan millisi ilə yanaşı, Almaniya, Rusiya, Belarus seçmələri qələbə üçün yarışacaqlar. B qrupunda isə mübarizə Çexiya, İtaliya, Bolqarıstan və Belçika komandaları arasında təşkil olunacaq.

Voleybol üzrə qızların mübarizəsində A qrupunda Rusiya, Bolqarıstan, Rumıniya və Azərbaycan, B qrupunda isə İtaliya, Türkiyə, Belarus və Almaniya yığmaları yer alıb.

Qaydalara görə, həm oğlanların, həm qızların yarışlarında qruplarda birinci və ikinci yeri tutan yığmalar pley-off mərhələsinə vəsiqə qazanacaqlar.

Festivalın voleybol yarışlarına iyulun 27-də yekun vurulacaq.

## Basketbol

Bakı-2019 çərçivəsində keçirilən basketbol yarışlarına iyulun 22-də start verilib. Oğlanların basketbol yarışı Avropa Azərbaycan Məktəbində, qızların yarışı isə “Sərhədçi” İdman Olimpiya Mərkəzində keçirilir. Yarışların açılış oyununda Macarıstan və Polşa (qızlar), paralel keçən digər görüşdə isə Yunanıstan və Litva (oğlanlar) komandaları qarşılaşıblar.

Yunanıstan və Litva komandaları arasında keçirilən qarşılaşmada 77:71 hesabı ilə qalib gələn litvalılar festivala qələbə ilə start veriblər. Digər oyunda isə Macarıstanın qadın basketbolçuları polşalı rəqiblərini böyük fərqlə - 95:50 hesabı ilə məğlub ediblər.

Qeyd edək ki, qızların və oğlanların basketbol yarışlarında 8 komanda iki qrupda mübarizə aparır. Oğlanların yarışında A qrupunda Azərbaycan, Xorvatiya, Fransa, Serbiya, B qrupunda İspaniya, Yunanıstan, Türkiyə və Litva yığmaları mübarizə aparırlar. Qızların mübarizəsində isə Belçika, Fransa, İtaliya, Rusiya milliləri A qrupunda, Çexiya, Macarıstan, Polşa və Türkiyə seçmələri isə B qrupunda yer alıblar. Qruplarda ilk iki yeri tutan komandalar pley-off mərhələsinə vəsiqə qazanacaqlar. Yarışlara iyulun 27-də yekun vurulacaq.

## Üzgüçülük

İyulun 22-də Bakı Su İdmanı Sarayında Bakı-2019-un üzgüçülük yarışlarına start verilib. Səhər sessiyasında keçirilən təsnifat yarışlarında qızlar 100 metr məsafəyə sərbəst, 400 metr məsafəyə fərdi qaydada qarışıq, 200 metr məsafəyə batterflyay, arxasıüstə, oğlanlar isə 200 metr məsafəyə brass, 400 metr məsafəyə sərbəst, 100 metr məsafəyə arxasıüstə üzmə yarışlarında mübarizə aparıblar.

Azərbaycan atletlərindən Məryəm Şeyxəlizadəxangah 100 metr məsafəyə sərbəst, Rəşad Əlquliyev 400 metr məsafəyə sərbəst üsulla, Elyar Cahangirbəyov isə 100 metr məsafəyə arxasıüstə üzmə yarışlarında çıxış ediblər. M.Şeyxəlizadəxangah 58:85, R.Əlquliyev 4:19:85, E.Cahangirbəyov isə 1:01:64 saniyə nəticə göstərib. Təəssüf ki, bu nəticələr təmsilçilərimizin növbəti mərhələyə vəsiqə qazanmalarına kifayət etməyib.

Qeyd edək ki, festivalın üzgüçülük yarışlarında Azərbaycan 6 atlet - Rəşad Əlquliyev, Elyar Cahangirbəyov, Maksim Petrenko, Ramil Vəlizadə, Aysel Səfərova, Məryəm Şeyxəlizadəxangah ilə təmsil olunur.

## Həndbol

İyulun 22-də XV Avropa Gənclər Olimpiya Festivalının həndbol yarışları start götürüb. Festivalın ilk görüşlərində qızların mübarizəsində B qrupunda yer alan komandalar - Azərbaycan və İsveçrə seçmələri Bakı İdman Sarayında, “ABU Arena”da paralel keçən qarşılaşmada isə Macarıstan və Çexiya həndbolçuları qarşılaşıblar.

Azərbaycan yığma komandası birinci görüşdə İsveçrə seçməsinə uduzub - 16:34. Digər oyunda isə Macarıstan yığması 30:22 hesabı ilə Çexiya millisinə qalib gəlib.

Qeyd edək ki, həm qızların, həm də oğlanların həndbol yarışlarının hər birində səkkiz komanda iki qrupda yer alıb. Qızların yarışında A qrupunda İspaniya, Fransa, Hollandiya və Rumıniya, B qrupunda Azərbaycan, Çexiya, Macarıstan və İsveçrə yığmaları mübarizə aparırlar. Oğlanların mübarizəsində isə Azərbaycan, Danimarka, Almaniya və Serbiya milliləri A qrupunda, Xorvatiya, Fransa, İslandiya və Sloveniya seçmələri isə B qrupunda yer alıblar.

Olimpiya dünyası



# Avropa kuboku yarışında 2 qızıl, 2 bürünc mükafat




Çex Respublikasının paytaxtı Praqada cüdo üzrə Avropa kuboku yarışı keçirilib. 39 ölkədən 437 cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar.

Cüdoçularımız beynəlxalq turnirdə 2 qızıl, 2 bürünc medal qazanıblar. Təmsilçilərimiz Rövşən Əliyev (60 kq) və İmran Yusifov (+100 kq) bütün görüşləri qalib başa vuraraq qızıl medala sahib olublar. Digər cüdoçularımız Rəşad Yelkiyev (60 kq) və Davud Abbaslı (66 kq) isə bürünc medala layiq görülüblər.

* * *

Qazaxıstanın Aktau şəhərində keçirilən cüdo üzrə açıq Asiya kuboku yarışına yekun vurulub. Azərbaycan idmançılarının da iştirak etdiyi yarışda 11 ölkədən 175 cüdoçu qalib adı uğrunda mübarizə aparıb. Əvvəlcə 60 kq, 66 kq və 73 kq çəki dərəcələrində mübarizə aparan kişi cüdoçular tatami üzərinə çıxıblar. Beynəlxalq turnirin ilk günü Azərbaycan cüdoçusu Yaşar Nəcəfov yalnız bir görüşdə uduzaraq bürünc medal qazanıb. Cüdoçumuz 3-cü yer uğrunda görüşdə Tacikistan idmançısı Dövlətəli Nəzərəliyevi məğlub edib.

Yarışının son günündə də Azərbaycan millisi aktivinə daha bir medal yazdırıb. +100 kq çəki dərəcəsində mübarizə aparan Şahin Qəhrəmanov yalnız finalda uduzaraq gümüş medala sahib olub.

Beləliklə, Azərbaycan cüdoçuları Asiya kubokunu bir gümüş və bir bürünc medalla başa vurublar.

Azərbaycanlı paralimpiyaçılar Tokio-2020 Paralimpiya Oyunlarına ilk lisenziyanı qazanıblar.

# İdmançımız Tokio-2020 Yay Paralimpiya Oyunlarına lisenziya qazanıb



Pouerliftinq üzrə Azərbaycanın paralimpiya yığma komandasının üzvü Elşən Hüseynov Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarına lisenziyasını təmin edib. Belə ki, Qazaxıstanın Nur-Sultan şəhərində keçirilən para-pouerliftinq üzrə dünya çempionatında idmançımız 107 kiloqram çəki dərəcəsində 217 kq çəki qaldırıb. O, bu nəticə ilə Paralimpiya Oyunlarına lisenziya qazanıb. Dünya reytinqində dördüncü olan idmançımız mövqeyini daha da möhkəmləndirib.

## *Karateçilərimiz Türkiyədə yarışacaqlar*

Avqustun 23-25-də Türkiyənin Rizə şəhərində Qara dəniz və Xəzəryanı ölkələrdən olan karateçilər arasında növbəti çempionat keçiriləcək.

Yarışlar uşaqlar, yeniyetmələr, gənclər, böyüklər və veteranlar kateqoriyalarında təşkil olunacaq.

Çempionatda 7, 8 və 9 yaşlı idmançılar kata üzrə fərdi və komanda yarışlarında çıxış edəcəklər. 10 yaşdan yuxarı idmançılar isə kata və kumite üzrə həm fərdi, həm də komanda yarışlarında mübarizə aparacaqlar.

Rəhbəri Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov olan Qara dəniz və Xəzəryanı ölkələrin Karate Federasiyaları Təşkilatının üzv ölkələrlə birgə keçirdiyi çempionat son üç ildə iki dəfə Sumqayıtda və Bakıda təşkil olunub. Bu təşkilatın sıralarında Dünya Karate Federasiyasının (WKF) üzvü olan Azərbaycanla yanaşı, region dövlətlərindən Türkiyə, Bolqarıstan, Rumıniya, Rusiya, Ukrayna, Gürcüstan, Ermənistan, İran, Qazaxıstan, Türkmənistan və Özbəkistan Karate federasiyaları da yer alıb.

## *Dünya çempionatında növbəti uğur*

Moskvada keçirilən Braziliya ciu-citsusu üzrə açıq dünya çempionatında Azərbaycan idmançıları uğurla çıxış ediblər.

2 minədək idmançının iştirak etdiyi çempionatda təmsilçilərimizdən Fəxrəddin Hüseynov və Vüsal Eynullayev bütün rəqiblərini üstələyərək birinci olublar. Ayaz Süleymanov, Mehman Fətəliyev, Çingiz Mehdiyev, Aslan Qədimli və Həsən Səfərəliyev isə gümüş medallarla kifayətləniblər.

Yığma komandamız çempionatda 20 idmançı ilə təmsil olunub.




# Qadın qılıncoynadanlarımız dünya çempionatında

Macarıstanın Budapeşt şəhərində keçirilən qılıncoynatma üzrə dünya çempionatının 6-cı günündə qadın sablyaçıların şəxsi yarışında əsas mərhələyə yekun vurulub.

Sablyaçılarımızdan Anna Başta 1/32 finalda Almaniya təmsilçisi Li Krugerə 15:10 hesabı ilə qalib gəlib. Anna növbəti mərhələdə İtaliya idmançısı İren Vecci üzərində 15:7 hesablı qələbə qazanmaqla dünyanın 16 ən güclü qadın sablyaçısı sırasına yüksəlib. Anna Başta 1/8 finalda fransalı Sesiliya Berderə 11:15 hesabı ilə uduzub. Anna dünya çempionatında 150-dən çox qadın sablyaçı arasında 13-cü olub. Digər sablyaçımız Valeriya Bolşakova isə 1/32 finalda İtaliya sablyaçısı Rossella Qreqorioya 10:15 hesabı ilə məğlub olub. Valeriya dünya çempionatını 45-ci sırada başa vurub. Digər sablyaçımız Səbinə Kərimova isə 1/32 finalda çinli Yaqi Şaoya 6:15 hesabı ilə uduzub. Səbinə yekun sıralamada 56-cı sırada qərarlaşıb.

## *Avropa çempionatında gümüş medal*

Çexiyanın Ostrava şəhərində stolüstü tennis üzrə gənclər arasında Avropa çempionatı keçirilib. Şəxsi yarışlarda finala yüksələn stolüstü tennisçimiz Yu Xinhanq çempionatın gümüş medalına sahib olub. Çempionatın komanda yarışlarında oğlanlardan ibarət Azərbaycan yığması da ikinci yeri tutub.

## *Beynəlxalq turnirdə uğurlu nəticə*




Azərbaycan badmintonçusu Edi Reski Dviçayo Qananın paytaxtı Akkra şəhərində keçirilən “2019 JE Wilson International Series” turnirində gümüş medal qazanıb.

Finala kimi uğurla irəliləyən idmançı son qarşılaşmasında məğlub olub.

Hindistanlı Kiran Corc təmsilçimizə 2:0 (25:23,21:19) hesabı ilə qalib gəlib. Gümüş medal Edi Reski Dviçayo 2130 reytinq xalı qazandırıb.

## *Qrossmeysterimiz Dortmundda ikinci yeri tutdu*

Almaniyanın Dortmund şəhərində keçirilən “Sparkassen Chess-Meeting” beynəlxalq şahmat turnirinə yekun vurulub. Azərbaycanlı qrossmeyster Teymur Rəcəbovun da iştirak etdiyi turnir dairəvi sistem üzrə təşkil olunub. Şahmatçımız son turda estoniyalı Kaydo Kyulaotsla oyununu heç-heçə başa vurub və cəmi 4 xal yığıb. Bu ona 2-5-ci yerləri bölüşdürməyə imkan verib.

Turnirin qalibi isə 4,5 xalla amerikalı Lenyer Dominqes olub.

## *Millimiz İspaniya yığmasına məğlub oldu*

Çimərlik futbolu üzrə Azərbaycan milli komandası Moskvada təşkil olunan dünya çempionatının seçmə oyunları çərçivəsində İspaniya yığması ilə qarşılaşıb.

Görüş rəqibin 10:5 hesablı qələbəsi ilə başa çatıb.

Camərd Baxşəliyev və Sabir Allahquliyevin dubl etdiyi oyunda komandamızın digər qolunu Amid Nazarov vurub.

# Dünya şöhrətli UFC və MMA döyüşçüsü “Judo Club 2012”də seminar keçib



Məşhur braziliyalı döyüşçü, adı UFC-nin (Ultimate Fighting Championship) Şöhrət zalına daxil edilmiş ciu-citsu ustası Roys Qreysi iyulun 19-da ölkəmizə qonaq gəlib. Heydər Əliyev Hava Limanında onu səfərin təşkilatçıları olan Azərbaycan Ciu-Citsu Federasiyasının, “Qodzilla” qrupun rəhbərləri, həmçinin paytaxtın ən müasir idman klublarından biri olan “Judo Club 2012”nin nümayəndələri və jurnalistlər qarşılayıblar. Beşqat UFC çempionu iyulun 20-də “Judo Club 2012”də seminar keçib. 100-dən çox idmançı və məşqçinin iştirak etdiyi seminarı döyüş növləri üzrə respublika federasiyalarının rəhbərləri, tanınmış idmançılar, ictimaiyyət və media nümayəndələri izləyiblər. “Judo Club 2012”nin geniş məşq zalına toplaşanlar dünya şöhrətli UFC və MMA (Mixed Martial Arts) əfsanəsini alqışlarla qarşılayıblar. Azərbaycan Ciu-Citsu Federasiyasının prezidenti Mir-Əli Seyidov və “Judo Club 2012”nin direktoru, Əməkdar məşqçi Hafis Hacıyev, klubun cüdo üzrə baş məşqçisi, Əməkdar məşqçi Tərlan Həsənov Roys Qreysini salamlayaraq tədbirin əhəmiyyətindən danışıblar. Sonra məşhur idmançı öz bacarıqlarını nümayiş etdirib. O, iki saat ərzində ciu-citsu döyüş sənətinin nəzəri-praktiki məsələlərindən danışmaqla yanaşı, müxtəlif döyüş fəndlərinin icrasını göstərib. Seminar məşhur ciu-citsu ustasının çoxsaylı sualları cavablandırması ilə başa çatıb. O, özünün döyüş təcrübəsi barədə ətraflı məlumat verib. Seminar azərbaycanlı məşqçilər üçün faydalı olmaqla yanaşı, məşq zalına toplaşmış çoxsaylı yeniyetmə və gənc idmançıda unudulmaz təəssürat yaradıb. Tədbirin sonunda “Judo Club 2012” idman klubunun təsisçisi, Azərbaycan Cüdo Federasiyası İcraiyyə Komitəsinin üzvü, cüdo üzrə veteran ustalar arasında dünya və Avropa çempionatlarının dəfələrlə qalibi və mükafatçısı Azər Əsgərov, Azərbaycan Ciu-Citsu Federasiyasının prezidenti Mir-Əli Seyidov və “Judo Club 2012”nin baş məşqçisi Əməkdar məşqçi Tərlan Həsənov dünya şöhrətli idmançıya “Judo Club 2012” və Azərbaycan Ciu-Citsu Federasiyası adından qiymətli hədiyyə və xatirə vimpelləri təqdim ediblər. Seminarın təşkilində göstərdiyi dəstəyə görə Azər Əsgərov Azərbaycan Ciu-Citsu Federasiyasının təşəkkürnaməsinə layiq görülüb. Təşəkkürnaməni federasiyanın prezidenti Mir-Əli Seyidov təqdim edib.

Sonda tədbir iştirakçıları birlikdə xatirə şəkli çəkdiriblər. Seminardan sonra əfsanəvi idmançı tədbir barəsində fikirlərini “Olimpiya dünyası” qəzeti ilə bölüşüb. İlin 7 ayını səfərlərdə keçirdiyini qeyd edən braziliyalı ciu-citsu ustası Bakıya növbəti gəlişindən məmnun olduğunu bildirərək deyib: “Bu mənim Bakıya ikinci səfərimdir. Ötən il də “Qodzilla” qrupun təşkilatçılığı ilə paytaxtınızda olmuşam. Bu günkü seminarda idmançılara müxtəlif fəndlərin və özünümüdafiənin incəliklərini əyani olaraq göstərdim. Zala çoxlu sayda yeniyetmə və gənc idmançı toplaşmışdı. Azərbaycanda bu idman növü ilə məşğul olan gəncləri görmək çox sevindiricidir. Bu, o deməkdir ki, ciu-citsu idman növü ölkənizdə sevilir və böyük populyarlıq qazanıb. Seminarda yetərincə perspektivli gənc idmançı gördüm. Onlar çalışırdılar ki, hər bir fəndi böyük həvəslə və dəqiqliklə yerinə yetirsinlər. Əminəm ki, bu idmançılar gələcəkdə öz ustalıq səviyyələrini artıraraq daha böyük nailiyyətlər qazanacaqlar. Təbii ki, belə bir yüksək şəraiti olan zalda məşq edən idmançı nailiyyət qazanmaya bilməz. Fürsətdən istifadə edib, seminarın təşkilində və uğurla keçirilməsində əməyi olan hər kəsə, xüsusilə də “Qodzilla” qrupa, Azərbaycan Ciu-Citsu Federasiyasına və seminarı keçirmək üçün bizə belə gözəl şərait yaradan “Judo Club 2012”nin rəhbərliyinə minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, bu mənim Bakıya sonuncu səfərim olmayacaq və biz yenidən bir daha belə seminarlarda görüşəcəyik”.




Xatırladaq ki, ötən il “Qodzilla” qrupun təşkilatçılığı ilə paytaxtımızın qonağı olmuş məşhur idmançı Azərbaycan Ciu-Citsu Federasiyasının zalında idmançılar üçün seminar keçmişdi.

*Azər Əlizadə*

# FUTBOL

*Dünən UEFA Çempionlar Liqasında 3-cü təsnifat mərhələsinin püşkü atılıb. İsveçrənin Nyon şəhərində keçirilən tədbirdə 2-ci təsnifat mərhələsinin 12 cütü və mübarizəyə birbaşa qoşulacaq 8 klub iştirak edib.*

*Bundan başqa, ölkəsində çempion olmayan klubların Liqa yolunda rəqiblərini müəyyənləşib.*

## “Qarabağ” əgər mərhələ keçsə...

Xatırladaq ki, “Qarabağ”ın da 3-cü raunddakı potensial rəqibləri məlum olub. 2-ci təsnifat mərhələsində İrlandiya “Dundalk”ı ilə qarşılaşacaq Ağdam təmsilçisi hazırkı rəqibini keçərsə, 3-cü raundda APOEL (Nikosiya, Kipr) - “Sutyeska” (Monteneqro) cütünün qalibi ilə qarşılaşacaq.



### Çempionlar Liqası

**III təsnifat mərhələsi**

**Çempionlar yolu**

ÇFR (Kluj, Rumıniya)/”Makkabi” (Tel-Əviv, İsrail) cütünün qalibi - “Seltik” (Şotlandiya)/”Nomme Kalyu” (Estoniya) cütünün qalibi

“Sutyeska” (Monteneqro)-/APOEL (Kipr) cütünün qalibi - “Dundalk” (İrlandiya)/ “Qarabağ” (Azərbaycan) cütünün qalibi

PAOK (Yunanıstan) - “Ayaks” (Hollandiya)

“Saburtalo” (Gürcüstan)/ “Dinamo” (Xorvatiya) cütünün qalibi - “Ferensvaroş” (Macarıstan)/”Valletta” (Malta) cütünün qalibi

“Srvena Zvezda” (Serbiya)/-HİK (Finlandiya) cütünün qalibi - TNS (Uels)/ “Kopenhagen” (Danimarka) cütünün qalibi

“Maribor” (Sloveniya)/AIK (İsveç) cütünün qalibi - BATE (Belarus)/ “Rusenborq” (Norveç) cütünün qalibi

**Liqa yolu**

“Başakşəhər” (Türkiyə) - “Viktoriya” (Çexiya)/”Olimpiakos” (Yunanıstan) cütünün qalibi

“Krasnodar” (Rusiya) - “Portu” (Portuqaliya)

“Brügge” (Belçika) - “Dinamo” (Kiyev, Ukrayna)

PSV (Hollandiya)/”Bazel” (İsveçrə) cütünün qalibi - LASK (Avstriya)

Qeyd edək ki, 3-cü təsnifat mərhələsində ilk oyunlar avqustun 6-7-də, cavab matçları isə 13-də keçiriləcək.



## “Qəbələ” və “Neftçi”nin də rəqibləri müəyyənləşdi

Bu gün Avropa Liqasında da 3-cü təsnifat mərhələsinin püşkü atılıb.

İsveçrənin Nyon şəhərində keçirilən tədbirdə ölkəmizin Avroliqadakı təmsilçiləri “Qəbələ” və “Neftçi”nin də potensial rəqibi məlum olub. “Qırmızı-qaralar” 2-ci mərhələdə Tbilisi “Dinamo”sunu keçsə, Hollandiyanın “Feyenoord” klubu ilə qarşılaşacaq.

“Neftçi” isə “Arsenal”ı (Rusiya) mübarizədən kənarlaşdırsa, İsrailin “Bney Yehuda” klubu ilə üzüzə gələcək. İkinci mərhələni keçəcəyi təqdirdə “Qəbələ” 3-cü mərhələyə səfərdə, “Neftçi” evdə başlayacaq.

**“Arsenal” (Tula, Rusiya)/”Neftçi” (Azərbaycan) cütünün qalibi - “Bney Yehuda” (İsrail)**



**“Feyenoord” (Hollandiya)/”Qəbələ” (Azərbaycan) - “Dinamo” (Tbilisi, Gürcüstan)**

Qeyd edək ki, Avropa Liqasında 3-cü təsnifat mərhələsinin ilk oyunları avqustun 8-də, cavab qarşılaşmaları isə 15-də keçiriləcək.

## Futbolçu rəsmilərlə görüşmədi

Misirdə keçirilmiş Afrika Millətlər Kubokunun finalından sonra baş tutmuş mükafatlandırma mərasimində maraqlı hadisə yaşanıb.

Turnirin qalibi Əlcəzair millisinin yarımmüdafiəçisi Riyad Mahrez kuboku alan zaman Misirin prezidenti Mustafa Madbuli və ölkənin İdman naziri Əşrəf Sofiyə salam verməyib.

Mahrezin bu addımı sosial şəbəkələrdə geniş müzakirə olunub.

Əlcəzair Seneqalı finalda 1:0 hesabı ilə məğlub edib və 2-ci dəfə Afrika çempionu olub.

## 13 yaşlı breykdansçı qeyri-adi penalti vurdu

13 yaşlı breykdansçı Corc Uorberton penaltini yerinə yetirməyin orijinal üsulunu göstərib.

Uorberton topa yaxınlaşdıqdan sonra onu ayağı ilə sürüşdürüb və qeyri-adi tullanışla qapı toruna göndərib. Bu zaman yeniyetmə breykdansçının tryuku qapıçını çaşdırıb. Topa ilk toxunuşdan sonra qolkiper digər tərəfə hərəkət edib və sol küncü boşaldıb. “Mərmi” də məhz həmin küncə istiqamətlənib.

Qeyd edək ki, peşəkar futbolda Corc Uorbertonun işlətdiyi fənd qayda pozuntusu sayılır. Çünki qaydalara əsasən, penaltini vuran oyunçuya yalnız bir toxunuş üçün icazə verilir. Uorberton isə iki toxunuşdan yararlanıb.

## Transfer xəbərləri



### İspaniya

“Real”dan ayrılacağı dəqiqləşən Xames Rodriqesin yeni



klubu müəyyənləşib. “Napoli”yə keçidi alınmayan kolumbiyalı yarımmüdafiəçi karyerasını “Atletiko”da davam etdirəcək. Madrid klublarının artıq öz aralarında razılığa gəldiyi bildirilir. “Kral klubu”nun 28 yaşlı futbolçunun satışından 40 milyon avro gəlir götürəcəyi iddia olunur. Təcrübəli oyunçunun “Atletiko” ilə 5 illik müqavilə bağlayacağı gözlənilir.

Qeyd edək ki, Xames ötən mövsümü icarə əsasında “Bavariya”da keçirib.

* * *

Bir çox klubun transfer hədəfində olan “Yuventus”un hücumçusu Moyze Kinlə “Barse-



lona” da maraqlanır. Luis Suaresə əvəzləyici axtaran Kataloniya klubu 19 yaşlı forvardı almaq istəyir. Yaxın günlərdə Turin klubuna təklif göndəriləcəyi bildirilir.”Yuventus”un da Kini satmağa müsbət yanaşdığı iddia olunur.

Qeyd edək ki, gənc futbolçu ötən mövsüm 17 oyuna 7 qol vurub, 1 qol ötürməsi edib. Onun “Yuventus”la 2020-ci ilin yayına qədər müqaviləsi var.

* * *

“Lion”un yarımmüdafiəçisi Nabil Fekir futbolçu karyerasını İspaniyada davam etdirəcək. Fransalı futbolçu yeni mövsümdən etibarən “Betis”in formasını geyinəcək. Futbolçunun transferi üçün yeni klub qarşı tərəflə 25 milyon avro dəyərində müqaviləyə imza atıb.



### İtaliya

İtaliyanın “Udineze” klubu heyətinə yeni futbolçu cəlb edib.

A Seriyası təmsilçisi Madrid “Real”ının hücumçusu Kristo Qonsalesin transferini açıqlayıb. 21 yaşlı forvard 1 illik icarəyə götürülüb.

Qeyd edək ki, Qonsales, son iki mövsümdə “Real Kasilya”da icarədə olub. O, bu komandada 72 oyuna 32 qol vurub.

* * *

“Roma” heyətini yeni futbolçu ilə gücləndirib. Paytaxt təmsilçisi “Fiorentina”dan Jordan Veretunu icarəyə götürüb. 26 yaşlı fransalı yarımmüdafiəçi qarşıdakı mövsümün sonunadək “Roma”da oynayacaq. “Kapitoli canavarlar”ı illik icarə üçün Florensiya klubuna 1 milyon avro ödəyib. “Roma” mövsümün sonunda 16 milyon avro ödəməklə fransalı futbolçunu birdəfəlik transfer edə bilər.



Qeyd edək ki, Veretu 2017-ci ildən “Fiorentina”da çıxış edir.

* * *

“Yuventus” fransalı yarımmüdafiəçi Blez Matuidi ilə yollarını ayırmaq üzrədir. “Sky Sport”un yaydığı məlumata görə, “Monako” həmin futbolçunu heyətinə cəlb etmək istəyir. “Yuventus”u rəhbərliyi Matuidini transferi üçün qarşı tərəfdən 25-30 milyon avro tələb edir.

### İngiltərə

“Tottenhem” aparıcı futbolçusu Kristian Erikseni komandada saxlamaq istəyir. “Daily Mail” nəşrinin yaydığı xəbərə görə, London klubu danimarkalı yarımmüdafiəçiyə yeni müqavilə təklif edib. Əgər 27 yaşlı oyunçu komandada qalmağa razılıq versə, həftəlik gəliri 200 min funt-sterlinq təşkil edəcək.

Qeyd edək ki, Eriksenin “Tottenhem”lə 2020-ci ilin yayına qədər müqaviləsi var. Təcrübəli futbolçunun hazırkı qazancı həftəlik 80 min funtdur.

* * *

“Arsenal” növbəti transferini reallaşdırıb. London klubu “Sent-Etyen”dən Vilyam Salibanı heyətinə cəlb edib. 18 yaşlı müdafiəçinin keçidi üçün 29 milyon avro təzminat ödənilib. Qeyd edək ki, “Sent-Etyen”in yetirməsi olan Saliba Fransanın U-20 millisinin üzvüdür.

* * *

“Totenhem”in hücumçusu Vinsent Yansenin növbəti klubu Meksikanın “Monterrey” olacaq. 25 yaşlı futbolçu Meksika klubu ilə müqavilə bağlayıb. Lakin onun müqaviləsi barəsində hələ ki, məlumat verilmir.

### Türkiyə

“Qalatasaray” klubu heyətinə yeni futbolçu cəlb edib. İstanbul təmsilçisi İngiltərənin “Fulhem” klubunun yarımmüdafiəçisi Jan-Mikael Serini icarəyə götürüb. Fil Dişi Sahilindən olan 28 yaşlı futbolçu 2019/2020 mövsümündə “sarı-qırmızılar”ın formasını geyinəcək. Onun “Fulhem”lə anlaşması isə 2022-ci ilədəkdir.

Serinin icarəsi “Qalatasaray”a 1,5 milyon avroya başa gəlib. İstanbullular yarımmüdafiəçini transfer etmək istədiyi təqdirdə, daha 18 milyon avro ödəməli olacaq.

* * *

“Fənərbaxça” qapıçı Berke Özeri icarəyə göndərib.



19 yaşlı qolkiper növbəti mövsüm icarə əsasında Belçika “Vesterlo”sunda çıxış edəcək. Qeyd edək ki, ötən mövsümün əvvəlində “Altınordu”dan “Fənərbaxça”ya transfer olunan B.Özer cəmi 1 matçda meydana çıxıb.

# Dünya idmanı





## İlin ən dəbli və varlı idmançısı

ABŞ tennisçisi Serena Uilyams 2019-cu ilin ən dəbli idmançısı seçilib. Qadın idmançı ABŞ-ın “Sports Illustrated” jurnalının bu ilin 50 ən parlaq və dəbli idmançıları siyahısında birinci yerdə qərarlaşıb. Məlumat üçün bildirək ki, Serena Uilyams artıq bir neçə ildir geyim və dəb sahəsində çalışır. O, idman geyimləri istehsal edən “Aners Designs” firmasının, eləcə də “Serena” brendinin sahibidir.

Qeyd edək ki, bundan əvvəl Serena Uilyams “Forbes” jurnalının nominasiyasında dünyanın ən varlı qadınları siyahısına daxil edilib. 23 dəfə “Böyük dəbilqə” turnirini qazanan tennisçi öz sərvətinin böyük əksəriyyətini tennis turnirlərində qazanıb.

## İki yeni komanda qoşulacaq

2021-ci il mövsümündə Formula 1 yarışlarına iki yeni komanda qoşula bilər. Bu barədə yarışların şərhçisi Co Seyvard “Motosport Week” saytındakı bloqunda yazıb.

Seyvardın verdiyi məlumata görə, layihələrdən birinin arxasında “Manor”un keçmiş rəhbəri Qrem Loudon durur, digəri isə “Super Aquri”nin 76 yaşlı keçmiş icraçı direktoru Daniel Audettonun adı ilə bağlıdır.

Hazırda Formula 1 qaydalarına görə, potensial yeni komandalar 20 milyon dollar girov qoymalıdırlar. Onlara ilk iki mövsümdə mükafat pulu almağa da imkan verilmir. Ehtimal olunur ki, 2021-ci ildə yeni komandalar 200 milyon dollar üzvlük haqqı ödəyəcək və bu vəsait yarışlarda iştirak edən komandalar arasında onların mükafat pullarının təzminatı olaraq bölüşdürüləcək.

## “Audi” “Barselona”dan narazıdır




“Audi” şirkəti İspaniyanın “Barselona” klubu ilə əməkdaşlığı dayandırıb.

Kataloniya təmsilçisi ilə müqavilə iyunun 30-da başa çatıb. Bundan sonra Almaniya avtomobil şirkəti “Barsa”nın oyunçularından konsernin avtomobillərini qaytarmalarını xahiş edib. Həmin maşınlar sponsorluq sözləşməsinin qüvvədə olduğu müddətdə futbolçulara pulsuz təqdim olunmuşdu.

Klub Asiya turundan qayıtdıqdan sonra avtomobilləri geri verməlidir. “Volkswagen Group”a daxil olan şirkət komandanın futbolçularının səfərlər zamanı rəqib şirkətinin maşınlarından çox az yararlanmalarından narazı qalıb.

Qeyd edək ki, “Barselona” iyulun 27-də Yaponiya “Vissel Kobe”si ilə yoldaşlıq görüşü keçirəcək. Hazırda “Vissel Kobe”də Kataloniya komandasının sabiq futbolçusu Andreas İnyesta çıxış edir.

## Həftəlik idman qoroskopu



**Qoç**
Bu həftə fiziki hazırlığınızı davam etdirəcəksiniz. Yorğunluğunuza baxmayaraq, başladığınız işi sona çatdıracaqsınız. Boş vaxtlarınızda xobbinizlə də məşğul olun. Bu, gərginliyinizi azaldacaq.

**Buğa**
Havalar isti keçdiyindən darıxırsınız. Ona görə də özünüzü yorğun hiss edirsiniz. Səhər idmanı ilə məşğul olun. Potensialınız var. Sevdiyiniz idman növü ilə məşğul olun. Həftə sonu sizi uğur gözləyir.

**Əkizlər**
Nə istədiyinizi özünüz də bilmirsiniz. Bir az istirahət etsəniz, yaxşı olar. Bu bürc altında dünyaya gələnlər həftə ərzində turizmə üstünlük verə bilərlər. Hər şey istədiyiniz kimi olacaq. Uğurlu gün şənbədir.

**Xərçəng**
Bu, sizin həftənizdir. Uğurların astanasındasınız. Hər şeyi ölçüb-biçməyiniz gərəkdir. Bu, sizin işinizin xeyrinədir. Sizin üçün uğurlu gün cümədir.

**Şir**
İntellektual idman növləri ilə məşğul olan şirlər üçün uğurlu həftədir. Məşqlərinizə davam edin. Yüngül idman hərəkətləri isə sizin sağlamlığınız üçün çox faydalıdır. Ən uğurlu gün çərşənbədir.

**Qız**
Həftənin əvvəlindən sonuna qədər sevdiyiniz işlə məşğul olacaqsınız. Fiziki hazırlığınızı artırmaq istəsəniz, yüngül idman hərəkətləri ilə kifayətlənin. Səhər qaçışları da sizin üçün faydalı ola bilər. Uğurlu gün şənbədir.

**Tərəzi**
Ulduzlar sizə tələsməməyi məsləhət görür. Atalar: "Tələsən təndirə düşər", - deyiblər. Bu həftə sizə bir qədər darıxdırıcı görünə bilər. Narahatlıq üçün heç bir əsas yoxdur. İşlərinizə və məşqlərinizə davam edin. Bəhrəsini görərsiniz. Uğurlu gününüz həftənin sonuncu günüdür

**Əqrəb**
Əqrəblər narahat olmaya bilərlər. Ulduzlar bu həftənin onlar üçün uğurlu keçəcəyini bildirir. Lakin bunun üçün bir qədər planlı hərəkət etmək gərəkdir. Bu bürc altında doğulanlar sevdikləri idman növü ilə yanaşı, üzgüçülüklə də məşğul olsalar, yaxşı olar. Ən yaxşı gün bazar günüdür.

**Oxatan**
Əzgin və yorğun olmağınızın səbəblərindən biri də düzgün həyat tərzi keçirməməyinizlə bağlıdır. İdmanla məşğul olun. Axı idman sağlamlığın rəhnidir. Səhər qaçışları və üzgüçülük sizin üçün çox xeyirlidir. Cümə uğurlu gününüzdür.

**Oğlaq**
Oğlaqlar idmana meyilli olduqlarından çox fəaldırlar. Bu həftə də sevdiyiniz idman növü gərəyiniz olacaq. Özünüzü çox yaxşı hiss edəcəksiniz. Bu bürc altında doğulanlar döyüş idman növləri ilə məşğul olurlarsa, bu həftə uğur qazanacaqlar.

**Dolça**
Sizin həftəniz deyil. Buna baxmayaraq, narahat olmağa dəyməz. Planlaşdırdığınız işləri görün. Sağlamlığınızın qeydinə qalmağı da yaddan çıxarmayın. Bu həftə daha çox idmana üstünlük verməyiniz məsləhətdir. Bazar günü uğurlu olacaq.

**Balıqlar**
Bu həftə balıqlar özlərini çox rahat və sərbəst hiss edəcəklər. Əgər çeki probleminiz varsa, idman vasitəsilə məsələni öz xeyrinizə həll edə bilərsiniz. Səhər qaçışlarına üstünlük verin. Ulduzlar bazar ertəsini sizin üçün uğurlu gün sayır.


**olimpnews.az - sizin saytınız**







(“Olimpiya dünyası” qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)


Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.



*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19